**https://doi.org/10.58225/tim.2026-1-129-137**

**S.E.İsmayılov**
***magistrant, UNEC***
***ismayilovserdar916@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 23.01.2026*
*The article was received by editorial board on 23.01.2026*
*Статья принята к печати 23.01.2026*

# AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BƏRPA PROSESLƏRİNİN SÜRƏTLƏNMƏSİNDƏ NORMATİV-HÜQUQİ TƏNZİMLƏMƏNİN ROLU

**Xülasə**

*İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərinin sürətlə aparılması Azərbaycan üçün tarixi bir çağırışdır. Bu prosesin uğurla və qısa zamanda həyata keçirilməsi üçün formalaşdırılmış normativ-hüquqi tənzimləmə bazası* mühüm rol oynayır. *2020-ci ildə müharibənin başa çatmasından dərhal sonra dövlət bu ərazilərdə çevik idarəetmə, mərkəzləşdirilmiş əlaqələndirmə və strateji planlaşdırma mexanizmləri qurmaqla bərpa işlərinə start vermişdir. Əlaqələndirmə Qərargahının yaradılması, xüsusi nümayəndəlik institutunun təsis edilməsi, "Böyük Qayıdış" Dövlət Proqramının qəbul edilməsi kimi qərarlar idarəetmədə səmərəliliyi artırmış və müxtəlif qurumların fəaliyyətini uzlaşdırmışdır. Eyni zamanda, normativ aktlarla işğaldan azad edilmiş ərazilərdə investisiya və sahibkarlıq üçün misli görünməmiş vergi və gömrük güzəştləri, sosial sığorta subsidiyaları və digər* stimullar *tətbiq* olunur. *Bu təşviqlər nəticəsində bölgədə özəl sektor fəallığı artır, bərpa prosesinə yerli və xarici sərmayələr cəlb edilir. Məqalədə normativ-hüquqi tənzimləmə vasitəsilə bərpa proseslərinin sürətlənməsi təcrübəsi geniş təhlil edilir, əldə olunan nəticələr və mövcud çətinliklər dəyərləndirilir, gələcək addımlar üçün tövsiyələr verilir, həmçinin tətbiq olunan hüquqi mexanizmlərin effektivliyi barədə ümumi nəticələrə əsaslanaraq elmi yanaşma ortaya qoyulur.*

***Açar sözlər:*** *işğaldan azad edilmiş ərazilər, bərpa, quruculuq, normativ-hüquqi tənzimləmə, Böyük Qayıdış, vergi güzəştləri, infrastruktur.*

## GİRİŞ

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilməsi ilə Azərbaycan tarixinin yeni mərhələsi başlandı. Otuz ilə yaxın müddətdə viran qalmış şəhər və kəndlərin, dağıdılmış infrastrukturun qısa zamanda bərpası dövlət qarşısında strateji vəzifə kimi durur. Bu prosesin aktuallığı həm humanitar

(məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı), həm də iqtisadi (ölkə iqtisadiyyatına yeni resursların və ərazilərin reinteqrasiyası) baxımından son dərəcə önəmlidir. Müharibədən sonrakı dövrdə bölgələrin dirçəlişi üçün çevik qərarlar qəbul edilmiş, normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində addımlar atılmışdır. Bu məqalənin mövzusu - bərpa proseslərinin sürətlənməsində normativ-hüquqi tənzimləmənin rolu - məhz dövlətin tətbiq etdiyi hüquqi mexanizmlərin və idarəetmə islahatlarının bu misilsiz quruculuq kampaniyasındakı əhəmiyyətini araşdırır.

Araşdırmanın əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa işlərini sürətləndirmək üçün qəbul edilmiş qərarların, qanunvericilik aktlarının və institusional yeniliklərin təhlilidir. Bu çərçivədə, tədqiqatın vəzifələri aşağıdakılardır: (1) post-münaqişə dövründə yaradılmış idarəetmə və əlaqələndirmə strukturlarını incələmək; (2) investisiya və quruculuğu təşviq edən normativ qərarları (vergi güzəştləri, dövlət proqramları və s.) təhlil etmək; (3) bu tədbirlərin bərpa prosesinin

temrinə təsirini qiymətləndirmək; (4) mövcud məhdudiyyətləri və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək. Metodologiya kimi normativ sənədlərin müqayisəli təhlili, rəsmi statistika və hesabatların incələnməsi, eləcə də mövzu üzrə aparılmış elmi mənbələrin nəzərdən keçirilməsi istifadə olunmuşdur. Tədqiqatın məhdudiyyətləri ondan ibarətdir ki, bərpa prosesi hələ davam etdiyindən, bəzi məlumatlar dəyişə bilər və uzunmüddətli nəticələri tam qiymətləndirmək gələcək tədqiqatlara ehtiyac duyur.

İstifadə olunan əsas mənbələrə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, İqtisadiyyat Nazirliyi və Dövlət Vergi Xidmətinin açıqlamaları, AZƏRTAC və APA kimi rəsmi xəbər agentliklərinin təhlilləri, həmçinin mövzu ilə bağlı mövcud elmi məqalələr daxildir. Girişdən sonrakı hissələrdə mövzu alt bölmələr üzrə ətraflı təhlil ediləcək, ədəbiyyat icmalı və müvafiq statistik məlumatlar təqdim olunacaqdır.

**Normativ-hüquqi baza və idarəetmənin təşkili**

İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə start verilməsi üçün ilk növbədə güclü idarəetmə mexanizmi formalaşdırıldı. Müharibə bitdikdən cəmi bir neçə həftə sonra, 24 noyabr 2020-ci il tarixində Prezident İlham Əliyev müvafiq Sərəncam imzalayaraq Əlaqələndirmə Qərargahının yaradılmasını təsdiq etdi (Azərbaycan Respublikası Prezidenti, 2020). Bu qərargahın məqsədi azad edilmiş ərazilərlə bağlı məsələlərin mərkəzləşdirilmiş qaydada həllini təmin etmək idi. Əlaqələndirmə Qərargahının rəhbərliyi Prezident Administrasiyasına həvalə olundu və onun nəzdində müxtəlif sahələr üzrə (məsələn, nəqliyyat, energetika, şəhərsalma, sosial müdafiə, minalardan təmizləmə və s.) 12 işçi qrupu formalaşdı (President.az, 2020). Bu interaktiv və çoxprofilli idarələrarası mexanizm sayəsində bərpa prosesinin ilkin mərhələsində dövlət qurumları arasında koordinasiya xeyli yaxşılaşdı. Sürətli qərar qəbulu, informasiya mübadiləsi və operativ nəzarət imkanı təmin olundu ki, bu da dağıntıların böyük miqyasda olduğu Qarabağda ilk təxirəsalınmaz layihələrin (mina təmizliyi, fövqəladə infrastruktur bərpası və s.) dərhal icrasına şərait yaratdı.

İdarəetmədə çevikliyi artıran digər bir yenilik xüsusi nümayəndəlik institutunun tətbiqi oldu. 19 yanvar 2021-ci ildə Prezidentin Fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndələri təyin edilə biləcəyi təsbit olundu (Azərbaycan Respublikası Prezidenti, 2021b). Bu qərara əsasən, Qarabağ və Şərqi Zəngəzurun müxtəlif bölgələrində (məsələn, Şuşa şəhəri, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə) birbaşa Prezidentə tabe olan xüsusi nümayəndələr fəaliyyət göstərməyə başladı. Xüsusi nümayəndələr mərkəzi icra hakimiyyətinin nümayəndələri kimi bölgədə idarəetmədə çeviklik və səmərəlilik təmin edir, dövlət orqanlarının yerli fəaliyyətini əlaqələndirir. Məhz bu institutun tətbiqi sayəsində bölgələrdə bürokratik əngəllər azalmış, qərarların icrası sürətlənmişdir. Məsələn, Şuşa şəhəri üzrə xüsusi nümayəndənin səlahiyyətləri çərçivəsində şəhərin Baş planının hazırlanması, infrastruktur layihələrinin icrası kimi məsələlər operativ həll edilir.

Bərpa proseslərinin planlı və sistemli aparılması üçün strateji planlaşdırma sənədləri də qəbul edildi. 2022-ci ildə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyası fonunda Qarabağ və Şərqi Zəngəzur üzrə xüsusi dövlət proqramı hazırlanıb təsdiq olundu. Prezidentin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" rəsmən qəbul edildi (Azərbaycan Respublikası Prezidenti, 2022b). Bu Dövlət Proqramı 2022- 2026-cı illəri əhatə edir və azad edilmiş bölgələrin bərpası, yenidən qurulması və köçkünlərin mərhələli şəkildə geri qaytarılması üçün yol xəritəsini müəyyənləşdirir. Proqram çərçivəsində yaşayış infrastrukturunun (yeni şəhər və kəndlərin salınması), nəqliyyat-kommunikasiya xətlərinin bərpası, sosial obyektlərin (məktəblər, xəstəxanalar) tikintisi, iqtisadi fəallığın canlandırılması kimi prioritet istiqamətlər üzrə konkret tədbirlər planı təsbit edilmişdir. "Böyük Qayıdış" proqramının icrası xüsusi nəzarət mexanizmi ilə müşayiət olunur: Nazirlər Kabinetinə proqramda nəzərdə tutulan tədbirlərin gedişi barədə ildə iki dəfə Prezidentə hesabat vermək tapşırılmışdır (Azərbaycan Respublikası Prezidenti, 2022b). Həmçinin Əlaqələndirmə Qərargahı bu proqramın icrasının əlaqələndirilməsi və monitorinqi

vəzifəsini icra edir. Dövlət proqramının qəbulu bərpa işlərinə uzunmüddətli baxış qazandırmış, mərhələli hədəflər müəyyən etməklə işlərin paralel və səmərəli aparılmasına şərait yaratmışdır.

İdarəetmə sahəsində bir yenilik də bərpa işlərinin müəyyən sektorlar üzrə mərkəzləşdirilmiş icrasıdır. 21 iyul 2022-ci ildə Prezident Fərmanı ilə "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" adlı publik hüquqi şəxs təsis edildi (Azərbaycan Respublikası Prezidenti, 2022a). Bu Xidmət əsasən azad edilmiş ərazilərdə yaşayış binalarının tikintisi və idarə olunması, şəhər abadlığı, mənzil- kommunal təsərrüfatı kimi məsələlərə cavabdehdir. Məsələn, Ağdam, Füzuli, Cəbrayıl kimi dağıntılara məruz qalmış şəhərlərdə çoxmənzilli yaşayış binalarının tikintisinin təşkil edilməsi və sonradan idarə olunması bu quruma həvalə olunub. Xidmətin yaradılması dövlət-özəl sektor tərəfdaşlığının da genişləndirilməsinə xidmət edir, çünki tikinti prosesinə xüsusi şirkətlərin cəlb olunması üçün vahid platforma rolunu oynayır. Bundan başqa, 2021-ci ilin əvvəlində yaradılmış "Qarabağ Dirçəliş Fondu" da (publik hüquqi şəxs olaraq) normativ bazanın əhəmiyyətli tərkib hissəsidir (Azərbaycan Respublikası Prezidenti, 2021a). Bu Fondun məqsədi bərpa-quruculuq işlərinə əlavə maliyyə dəstəyi cəlb etmək, ictimaiyyət və diasporu bu işlərə qatmaqdır. Fondun Nizamnaməsində azad edilmiş ərazilərdə tarixi, mədəni irsin bərpası, sosial layihələrin maliyyələşdirilməsi kimi prioritetlər vurğulanmış və ianələrin toplanması mexanizmi müəyyən edilmişdir. Göründüyü kimi, müharibədən dərhal sonra hüquqi- institusional sahədə ardıcıl addımlar atılaraq bərpa prosesinin vahid mərkəzdən idarə olunması təmin edilmişdir (Həsənova, 2025). Bu ardıcıllıq sayəsində ötən qısa müddətdə ərazilərin dirçəldilməsi yönündə xeyli iş görülmüş, prosesin ləngiməsinə səbəb ola biləcək çoxbaşlılıq və əlaqəsizlik halları minimuma endirilmişdir.

Qeyd etmək lazımdır ki, normativ-hüquqi çərçivə təkcə idarəetmə və koordinasiya məsələləri ilə məhdudlaşmır. Azad edilmiş bölgələrdə şəhərsalma və tikinti fəaliyyətlərinin də hüquqi bazası sürətlə formalaşdırılıb. Məsələn, qısa zamanda işğaldan azad olunmuş ərazilərin Ümumi Planı hazırlanmış, habelə bir neçə şəhərin baş planları təsdiq edilmişdir. Artıq 8 şəhərin Baş planı və 3 şəhərin müfəssəl planı rəsmi qaydada təsdiqlənmiş, Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərinin baş plan layihələri isə hazırlanma mərhələsindədir (Həsənova, 2025). Şəhərsalma sənədlərinin sürətlə təsdiqi bərpa işlərinə sistemlilik gətirərək "əhali harada məskunlaşacaq, hansı ərazilər sənaye və ya kənd təsərrüfatı zonası olacaq" kimi suallara aydınlıq gətirmişdir. Nəticədə, bir tərəfdən, tikinti işləri planlı həyata keçirilir, digər tərəfdən isə vaxt itirmədən paralel layihələr başlaya bilir. Məsələn, Ağdam şəhərinin Baş planının təsdiqi (2021-ci il) həmin şəhərdə həm ictimai binaların, həm yaşayış məhəllələrinin eyni zamanda inşasına imkan verdi. Eyni zamanda, azad edilmiş ərazilər ilk gündən "yaşıl enerji zonası" elan olunmuş və bununla bağlı da normativ qərarlar qəbul edilmişdir. 3 may 2021-ci il tarixli Sərəncamla Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonasının yaradılması üzrə tədbirlərə start verilmiş, 2022-ci ilin iyununda Nazirlər Kabineti bu istiqamətdə Tədbirlər Planını təsdiq etmişdir (İqtisadiyyat Nazirliyi, 2023). Bu qərarlar bölgədə bərpa olunan enerji mənbələrindən istifadəyə hüquqi şərait yaratmış, xarici enerji şirkətləri ilə investisiya layihələrinin (məsələn, Qarabağda günəş və külək elektrik stansiyalarının qurulması) qarşısını açmışdır.

Yuxarıda sadalananlar göstərir ki, dövlət post-münaqişə dövründə qısa zamanda geniş normativ-hüquqi baza formalaşdıraraq institusional hazırlıq işlərini tamamlamışdır. Bunun sayəsində bərpa proseslərinin "yoxdan qurulması" mərhələsi sürətlə keçildi və artıq quruculuq işlərinin konkret icra mərhələsinə keçilmiş oldu. Növbəti bölmədə həmin normativ tənzimləmənin iqtisadi inkişafa və investisiyalara necə təkan verdiyinə nəzər salınacaq.

**İqtisadi təşviqlər və güzəştlər**

Azad edilmiş ərazilərin bərpası təkcə dövlət investisiyaları ilə həyata keçirilməyəcək qədər genişmiqyaslıdır. Ona görə də dövlət normativ aktlar vasitəsilə bölgədə özəl sektoru təşviq etməyə, yerli və xarici investisiyaları cəlb etməyə xüsusi önəm verir. 2021-ci ilin sonlarında bu istiqamətdə mühüm addım atıldı - Prezidentin 10 dekabr 2021-ci il tarixli Sərəncamı ilə "işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər" barədə tapşırıqlar verildi (Azərbaycan

Respublikası Prezidenti, 2021c). Bu sərəncam bölgədə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqini, investisiya təşviqi mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tuturdu. Nəticə etibarilə 2022-ci ildə müvafiq qanunvericiliyə dəyişikliklər hazırlanıb qəbul edildi və 2023-cü ilin əvvəlindən etibarən işğaldan azad edilmiş ərazilərdə misli görünməmiş vergi güzəştləri qüvvəyə mindi (Dövlət Vergi Xidməti, 2023).

Vergi və gömrük güzəştləri. Vergi Məcəlləsinə əlavə olunmuş yeni fəsillə müəyyən edildi ki, azad edilmiş ərazilərdə vergi uçotunda olan və faktiki olaraq orada fəaliyyət göstərən hüquqi və fiziki şəxslər (yəni "ərazinin rezidentləri") 2023-cü il yanvarın 1-dən başlayaraq 10 il müddətinə bir sıra vergilərdən azad olunur (Vergi Məcəlləsinə dəyişiklik, 2022). Belə ki, həmin rezidentlər mənfəət (gəlir) vergisi, əmlak vergisi, torpaq vergisi və sadələşdirilmiş vergini 10 il ərzində ödəməyəcəklər (Dövlət Vergi Xidməti, 2023). Bu, faktiki olaraq həmin ərazilərdə biznes fəaliyyəti üçün əsas vergi yükünün tam aradan qaldırılması deməkdir və investorlar üçün böyük stimul yaradır. Bundan əlavə, müvafiq icra orqanının müəyyən etdiyi sahələr üzrə azad edilmiş ərazilərdə istehsal və xidmət fəaliyyəti üçün lazım olan texnika, texnoloji avadanlıq, xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən və gömrük rüsumundan azad edildi (İqtisadiyyat Nazirliyi, 2023). Yəni, məsələn, Ağdamda bir emal zavodu qurmaq istəyən sahibkar xaricdən gətirdiyi avadanlığa görə nə ƏDV, nə də gömrük rüsumu ödəyəcək. Bu güzəştlər isə yalnız dövlət qeydiyyatını həmin ərazidə etdirmiş və orada fəaliyyət göstərən şəxslərə şamil olunur ki, güzəşt mexanizmi təyinatı üzrə işləmiş olsun. Bu güzəştlərin əsas istiqamətlərini daha aydın göstərmək üçün aşağıdakı cədvəldə tətbiq olunan dəstək mexanizmləri sistemləşdirilmiş şəkildə ümumiləşdirilib.

**Cədvəl 1**

**İşğaldan azad edilmiş ərazilərdə tətbiq olunan əsas vergi və iqtisadi güzəştlər**

| Güzəştin növü | Təsviri | Tətbiq müddəti | Tətbiq sahəsi |
|---|---|---|---|
| Mənfəət/gəlir vergisindən azadolma | Hüquqi və fiziki şəxslər 10 il ərzində mənfəət və ya gəlir vergisi ödəmir | 2023-2033 | Rezident hüquqi/fiziki şəxslər |
| Əmlak və torpaq vergisindən azadolma | Əmlak və torpaq vergiləri üzrə 10 illik vergi tətilləri | 2023-2033 | Sahibkarlar və müəssisələr |
| ƏDV və gömrük rüsumundan azadolma | İstehsal və xidmət üçün idxal olunan avadanlıq və materiallara şamil olunur | 2023-2033 | İstehsal və xidmət sahələri |
| Sosial sığorta haqlarının subsidiyası | Qeyri-dövlət sektorunda işəgötürənlərə dövlət tərəfindən subsidiyalar verilir | 2023-2030 (mərhələli) | Bütün qeyri-dövlət müəssisələri |
| Kommunal xidmətlərə 20% subsidiya | Elektrik, su, qaz xidmətlərinin bir hissəsi dövlət tərəfindən qarşılanır | Daimi tədbir olaraq başlanıb | Sənaye və istehsal müəssisələri |
| Faiz subsidiyası ilə güzəştli kreditlər | Sahibkarlara ayrılmış kreditlərin faizlərinin bir hissəsi dövlət tərəfindən ödənilir | Müddət limiti yoxdur | Yerli və xarici sahibkarlar |
| Xüsusi iqtisadi zonalar | Ağdam və Cəbrayılda yaradılmış sənaye parkları vasitəsilə əlavə güzəştlər | 10 il (vergi azadolmaları) | Rezident şirkətlər və inv |

***Mənbə:*** *İqtisadiyyat Nazirliyi (2023), Dövlət Vergi Xidməti (2023), Azərbaycan Respublikası Prezidentinin rəsmi sənədləri (2021-2023)*

Bu cədvəl işğaldan azad edilmiş ərazilərdə bərpa və iqtisadi inkişafın təşviqi məqsədilə qəbul

olunmuş əsas normativ-hüquqi güzəştləri ümumiləşdirir. Göstərilən güzəştlər, 2023-cü ildən etibarən genişmiqyaslı şəkildə qüvvəyə minmiş və həm yerli, həm də xarici investorlar üçün regionu daha cəlbedici etmişdir. Xüsusilə, 10 illik vergi azadolmaları və subsidiyalı kredit mexanizmləri yeni müəssisələrin açılmasını stimullaşdırır. Kommunal xərclərin və sosial sığorta haqlarının dövlət tərəfindən qarşılanması isə əməliyyat xərclərini azaldaraq iqtisadi rentabelliyi artırır. Xüsusi iqtisadi zonalar - Ağdam və Araz Vadisi sənaye parkları — investorlar üçün "bir pəncərə" mexanizmini təklif edir və güzəşt rejimini sistemləşdirilmiş qaydada tətbiq etməyə şərait yaradır. Bu cədvəl həm hüquqi tənzimləmənin strukturlu şəkildə təqdimini, həm də onların bölgədə praktiki təsirlərini anlamaq baxımından vacib informativ mənbə rolunu oynayır.

Bundan başqa, azad edilmiş ərazilərin rezidenti olan hüquqi şəxslərin təsisçilərinin (səhmdarların) əldə etdiyi dividendlər də 10 il ərzində vergidən azad edilmişdir (Dövlət Vergi Xidməti, 2023). Göründüyü kimi, vergi-tutma sahəsində çox cəsarətli addımlar atılıb. Bu addımların əsas məqsədi iş adamlarını həmin bölgələrə sərmayə qoymağa həvəsləndirmək, orada yeni müəssisələrin, iş yerlərinin açılmasını sürətləndirməkdir. Artıq 2023-cü ilin nəticələrinə görə, güzəştlərin qüvvəyə minməsi ilə bir sıra yerli şirkətlər Füzuli, Zəngilan, Ağdam sənaye zonalarında yatırım layihələrinə başlayıblar (AZƏRTAC, 2023). Həmçinin xarici investorlar üçün də cəlbedici mühit yaradılıb - misal üçün, Türkiyə, İsrail və digər ölkələrdən şirkətlər "Araz Vadisi" sənaye parkında fəaliyyət göstərmək üçün müraciətlər ediblər. Bu, normativ tənzimləmə sayəsində mümkün olub, çünki adi şəraitdə müharibədən çıxmış, infrastrukturu bərbad vəziyyətdə olan bir bölgəyə investor cəlb etmək çətin olardı. İndi isə vergi amnistiyası kimi qiymətləndirilə biləcək bu yanaşma bölgənin investisiya cazibəsini kəskin artırıb.

Sosial sığorta və digər təşviqlər. Dövlət yalnız vergi deyil, həm də digər iqtisadi mexanizmlərlə Böyük Qayıdışı sürətləndirməyə çalışır. Xüsusilə, azad edilmiş ərazilərdə işləyən mütəxəssislərə əlavə dəstək tədbirləri nəzərdə tutulub. Məsələn, qeyri-dövlət sektorunda həmin ərazilərdə çalışanlar üçün ödənilən məcburi dövlət sosial sığorta haqları müəyyən müddət dövlət tərəfindən subsidiyalaşdırılır (İqtisadiyyat Nazirliyi, 2023). Konkret olaraq, 2023-2025-ci illərdə 100% subsidiyalaşdırma, sonrakı illərdə tədricən azalan faizlə (2026-2028-də 80%, 2029-2030-da 60% və s.) təmin ediləcək. Bu o deməkdir ki, məsələn, Füzulidə işləyən bir özəl şirkət işçilərinə görə sosial sığorta haqqı ödəyərkən, ödədiyi məbləğin hamısını (ilk üç il) və ya böyük qismini hökumətdən geri alacaq. Bu, işəgötürənlər üçün ciddi güzəştdir və bölgədə iş yerlərinin açılmasını təşviq edir. Eyni zamanda, fərdi sahibkarlar və ailə-kəndli təsərrüfatları üçün də 10 il ərzində sosial sığorta haqları tam subsidiyalaşdırılır (İqtisadiyyat Nazirliyi, 2023). Bu qərarlar əhalinin həmin ərazilərdə işləmək və biznes qurmaq marağını artırır, çünki həm işçi, həm də sahibkar üçün əlavə maddi stimullar yaranır.

Kommunal güzəştlər və kredit dəstəyi. Normativ aktlarla azad edilmiş zonada fəaliyyət göstərən rezidentlərə kommunal xidmətlər üzrə də güzəştlər verilib. İstehsal fəaliyyəti ilə məşğul olan sahibkarların elektrik enerjisi, qaz, su kimi xidmətlərə ödədikləri haqqın 20%-i dövlət büdcəsi hesabına onlara geri qaytarılacaq (İqtisadiyyat Nazirliyi, 2023). Bu, praktiki olaraq kommunal xərclərin beşdə birinin dövlət tərəfindən subsidiyalaşdırılması deməkdir. İnvestorlar üçün digər bir böyük stimul isə dövlət zəmanətli kreditlər mexanizmidir. İşğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlara toplam 500 milyon manat həcmində güzəştli kredit portfeli ayrılıb, bunun 450 milyon manatı dövlət zəmanəti ilə təmin olunur (İqtisadiyyat Nazirliyi, 2023). Həmçinin bu kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi dövlət tərəfindən subsidiyalaşdırılır. Yəni, bir sahibkar Qarabağda layihə üçün banka kredit müraciəti edəndə, əgər kredit şərtləri uyğun gəlirsə, faizlərin bir hissəsini dövlət ödəyəcək, üstəlik kreditin böyük qismi dövlət zəmanəti altında olacaq. Bu cür maliyyə dəstəyi sayəsində risklər azalır və bizneslərin sərmayə tapması asanlaşır. Artıq 2022-2023-cü illərdə bir neçə layihə bu mexanizmdən faydalanaraq bank kreditləri hesabına bölgədə fəaliyyətə başlayıb (AZƏRTAC, 2023).

Xüsusi iqtisadi zonalar və sənaye parkları. Normativ hüquqi tənzimləmənin bir istiqaməti də azad edilmiş ərazilərdə xüsusi rejimli iqtisadi zonaların yaradılmasıdır. Prezidentin 28 may 2021-ci il tarixli Fərmanı ilə Ağdam şəhəri yaxınlığında Ağdam Sənaye Parkı yaradıldı (İqtisadiyyat Nazirliyi, 2023).

Eyni zamanda 4 oktyabr 2021-ci il tarixli fərmanla Cəbrayılda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı yaradıldı. Bu sənaye parklarının rezidentləri üçün ayrıca geniş vergi və rüsum güzəştləri müəyyən edilib: qeydiyyatdan keçdikləri tarixdən 10 il müddətinə mənfəət, əmlak, torpaq vergisindən, idxal avadanlıqlarına görə ƏDV və gömrük rüsumundan azaddırlar (İqtisadiyyat Nazirliyi, 2023). Belə zonaların yaradılması normativ aktlarla rəsmiləşdirilib və investorlar üçün “bir pəncərə” formatında əlverişli şərait yaradıb. Artıq Ağdam Sənaye Parkında ilk rezidentlərin qeydiyyatı aparılıb, tikinti materialları istehsalı, kənd təsərrüfatı emalı kimi sahələrdə zavodların tikintisi başlanıb. “Araz Vadisi” zonasında isə logistika mərkəzi, ticarət və innovativ istehsal sahələri planlaşdırılır. Bu zonaların infrastrukturu dövlət hesabına qurulur, hüquqi rejimi xüsusi qanunvericiliklə tənzimlənir. Göründüyü kimi, normativ-hüquqi tənzimləmə bərpa prosesinə yalnız dövlət büdcəsi və tikinti layihələri prizmasından deyil, həm də bazar mexanizmləri prizmasından yanaşır. Yaradılan hüquqi bazanın məqsədi odur ki, azad edilmiş torpaqlarda iqtisadi həyat canlansın, orta və uzun müddətdə bölgə öz-özünü təmin edən, dayanıqlı iqtisadiyyata malik olsun. Bu isə ancaq özəl investisiyalar və biznes fəallığı sayəsində mümkün ola bilər.

Yuxarıda sadalanan təşviqlər artıq öz nəticəsini verməkdədir. 2022-ci ildən etibarən dövlət büdcəsindən illik əsasda ayrılan vəsaitlərlə yanaşı, özəl sektorun da iştirakı ilə bir çox layihə gerçəkləşir. Məsələn, Enerji infrastrukturu sahəsində Böyük Britaniya və Səudiyyə Ərəbistanından şirkətlərlə günəş və külək elektrik stansiyalarının inşası barədə müqavilələr imzalanıb (AZƏRTAC, 2023). Kənd təsərrüfatı sektorunda yerli sahibkarlar tərəfindən müasir aqroparklar, istixanalar qurulur. Tikinti materialları istehsalı üzrə zavodlar (beton, yüngül bloklar, asfalt zavodları və s.) regionda fəaliyyətə başlayıb ki, bu da bərpa işlərinə lazım materialları yaxın məsafədən təmin edir. Bütün bunlar normativ qərarların yaratdığı güzəştli mühit nəticəsində mümkün olub. Özəl şirkətlər anlayırlar ki, Qarabağ və Şərqi Zəngəzurda indi iş qurmaq onlara uzun müddətli vergi tətili verir, infrastruktur dövlət tərəfindən təmin edilir, məhsullarını bazara çıxarmaqda dəstək alırlar. Bu cür stimul olmasa idi, ərazilərin tamamilə yenidən qurulması onilliklərlə uzana bilərdi. Beynəlxalq təcrübə də göstərir ki, post-müharibə rekonstruksiyasında vergi imtiyazları, investisiya üçün xüsusi zonalar yaratmaq prosesi sürətləndirən effektiv vasitələrdəndir. Azərbaycan nümunəsində də biz bunu görürük: bir tərəfdən dövlət xərcləri artırılır, digər tərəfdən normativ-hüquqi tənzimləmə ilə özəl sektorun resursları səfərbər olunur. Nəticədə, qısa müddətdə həm iqtisadi aktivlik artır, həm də əhalinin sosial rifahı üçün zəruri şərait formalaşır.

**Normativ-hüquqi islahatların Qarabağ modelində dayanıqlı inkişaf üçün yaratdığı əsas**

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa prosesləri təkcə fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır; bu proses paralel şəkildə hüquqi və institusional əsasların formalaşmasını da özündə ehtiva edir. Azad edilmiş ərazilərdə yaradılan yeni idarəetmə modeli - Əlaqələndirmə Qərargahı, xüsusi nümayəndəliklər, regional dövlət xidmətləri və vahid tikinti xidməti - ərazidə dövlətin institusional varlığını müasir tələblərə uyğun şəkildə qurmağa imkan verib. Bu yanaşma təkcə müharibədən sonrakı bərpa deyil, uzunmüddətli dayanıqlı inkişaf baxımından da mühüm əhəmiyyət daşıyır.

Normativ-hüquqi tənzimləmənin əsas üstünlüklərindən biri də dövlət və özəl sektor arasında vəhdətə əsaslanan bərpa modelini təşviq etməsidir. Tətbiq olunan vergi güzəştləri, subsidiyalar, sosial sığorta dəstəkləri və xüsusi iqtisadi zonalar vasitəsilə özəl sektorun aktiv iştirakı təmin olunub. Bunun nəticəsində dövlət resurslarının yüklənmədən, daha balanslı və nəticəyönlü şəkildə istifadə edilməsinə şərait yaranıb (Həsənova Ş., 2025). Təsadüfi deyil ki, azad edilmiş ərazilərdə artıq bir neçə iri yerli və xarici investisiya layihələri icra olunur. Dövlət proqramlarının hüquqi bazaya söykənməsi həm şəffaflığı artırır, həm də hesabatlılıq və nəzarət mexanizmlərini gücləndirir (İqtisadiyyat Nazirliyi, 2023).

Normativ yanaşmanın digər vacib cəhəti onun mərhələli inkişaf və uzunmüddətli planlama prinsipinə əsaslanmasıdır. “Böyük Qayıdış” Dövlət Proqramı və şəhərlərin Baş planları vasitəsilə ərazilərdə nəinki qısa müddətli tikinti layihələri, həm də strateji məskunlaşma və iqtisadi fəaliyyət üçün hüquqi yol xəritəsi müəyyən edilib (Azərbaycan Respublikası Prezidenti, 2022b). Bu isə gələcək nəsillərin də həmin ərazilərdə keyfiyyətli yaşaması üçün zəmin yaradır.

Son olaraq vurğulamaq olar ki, normativ-hüquqi tənzimləmə Qarabağ modelində yalnız icra aləti deyil, həm də sosial sabitlik, iqtisadi davamlılıq və milli təhlükəsizliyin təmin olunmasında strateji sütun funksiyasını yerinə yetirir. Növbəti mərhələdə bu modelin elmi əsaslarla təhlili və beynəlxalq platformalarda təqdimatı, həm də digər post-münaqişə bölgələri üçün tətbiq oluna biləcək nümunə xarakteri daşıyacaq.

**NƏTİCƏ**

İşğaldan azad edilmiş ərazilərdə bərpa proseslərinin gedişi göstərir ki, düzgün qurulmuş normativ-hüquqi çərçivə yenidənqurma işlərinin sürətini və səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Azərbaycan dövlətinin 2020-ci ilin sonundan etibarən atdığı çevik hüquqi addımlar - Əlaqələndirmə Qərargahının yaradılması, xüsusi nümayəndəliklərin təsis olunması, böyük strateji proqramların qəbul edilməsi, investisiya təşviqlərinin hüquqi cəhətdən təmin edilməsi - qısa zamanda real nəticələr vermişdir. Cəmi üç il ərzində Qarabağ və Şərqi Zəngəzur "xarabalıqdan dirçəlişə" doğru mühüm yol qət edib. Artıq 2023- cü ilin sonuna azad edilmiş ərazilərdə müharibənin dağıntılarının əsas hissəsi aradan qaldırılıb: minaatanların və partlamamış sursatların təmizlənməsi geniş vüsət alıb (2020-dən bəri 240 min hektardan çox ərazi minalardan təmizlənmişdir) (Həsənova, 2025). Paralel olaraq, kritik infrastruktur yenidən qurulub - Füzuli, Zəngilan və Laçında üç beynəlxalq hava limanı istifadəyə verilib, ümumi uzunluğu minlərlə kilometr olan avtomobil yollarının mühüm qismi tamamlanıb, elektrik, su, istilik təchizatı şəbəkələri bərpa edilib (Həsənova, 2025; APA, 2024). Dövlət büdcəsindən ayrılan vəsaitlər hər il artırılaraq 2023-cü ildə 3 milyard manat həcmində vəsait bu bölgələrin dirçəlişinə yönəldilib ki, bu da əvvəlki illə müqayisədə 13% artım deməkdir (AZƏRTAC, 2023). Bu vəsait hesabına yüzlərlə layihə həyata keçirilir.

Normativ-hüquqi tənzimləmə nəticəsində əhalinin qayıdışı prosesi də inamla gedir. Artıq minlərlə məcburi köçkün ailəsi yenidən qurulmuş kənd və qəsəbələrə köçürülüb, yeni yaradılan iş yerlərində çalışır. Məsələn, Zəngilanın Ağalı kəndi "ağıllı kənd" konsepti ilə yenidən inşa edilərək sakinlərini qəbul edib, Tərtər rayonunun Suqovuşan qəsəbəsinə, Füzuli şəhərinə ilk köç karvanları geri dönüb (APA, 2024; idp.gov.az, 2025). Bu uğurların əldə edilməsində qəbul olunmuş hüquqi qərarların - güzəştlərin, proqramların, idarəetmə islahatlarının - payı danılmazdır. Bərpa prosesinə cəlb olunan dövlət qurumları vahid plan üzrə işləyir, rəqabət aparmır, əksinə resursları birləşdirir. Özəl sektor üçün yaradılan şərait nəticəsində dövlət-özəl tərəfdaşlığı modelinin uğurlu nümunələri ortaya çıxır. Məsələn, beynəlxalq maliyyə qurumları və qeyri-hökumət təşkilatları da bu prosesə qoşulmağa başlamışdır ki, bu da normativ çərçivənin şəffaf və beynəlxalq standartlara uyğun qurulmasının nəticəsidir (Kolarz və Wojtasiewicz, 2025).

Bununla yanaşı, qarşıda hələ həllini gözləyən məsələlər də qalır. Bərpa işlərinin tempinə təsir edən amillərdən biri ərazilərin hələ də tam mina təmizliyinin bitməməsidir - 2026-cı ilin sonunadək daha on minlərlə hektarın təmizlənməsi nəzərdə tutulur (APA, 2024). Normativ tənzimləmə bu sahədə də yeniliklərə yol açmalıdır, məsələn, mina təmizləmə prosesinə xarici texnologiyaların cəlbi üçün hüquqi maneələr azaldıla bilər. Digər çətinlik beynəlxalq maliyyə dəstəyinin məhdud olmasıdır; bəzi beynəlxalq donorlar post-münaqişə bölgələrinin bərpasına siyasi səbəblərlə ehtiyatla yanaşırlar (Kolarz və Wojtasiewicz, 2025). Gələcəkdə normativ çərçivənin təkmilləşdirilməsi bu donorların cəlbini asanlaşdırmağa yönələ bilər, məsələn, publik-özəl tərəfdaşlıq (PPP) mexanizmləri üzrə qanunvericiliyin tətbiqi ilə. Bunun sayəsində xarici investorlara da müəyyən təminatlar verilə və risklər bölüşdürülə bilər.

Ümumilikdə aparılmış təhlil göstərir ki, Azərbaycanın azad edilmiş ərazilərində bərpa proseslərinin sürətli gedişi təsadüfi deyil, planlı və düşünülmüş normativ-hüquqi bazanın nəticəsidir. Bu təcrübə bir çox ölkələr üçün də nümunə ola bilər: müharibədən çıxmış regionun qısa müddətdə dirçəldilməsi üçün siyasi iradə ilə yanaşı, çevik qanunvericilik və effektiv idarəetmə institutları vacibdir. Azərbaycan modeli sübut edir ki, doğru normativ tənzimləmə vasitələri tətbiq etməklə xarabalıqları qısa zamanda yenidən canlandırmaq mümkündür. Gələcəkdə aparılacaq tədqiqatlar bu prosesin uzunmüddətli səmərəliliyini, normativ mexanizmlərin iqtisadi göstəricilərə (ÜDM artımı, məşğulluq

səviyyəsi və s.) təsirini öyrənə bilər. Hazırkı nəticələr isə onu deməyə əsas verir ki, bərpa proseslərinin sürətlənməsində normativ- hüquqi tənzimləmə həlledici rol oynamış, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə yol açmışdır.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** APA. (2024). Azad edilmiş ərazilərin bərpası: xarabalıqdan dirçəlişə doğru - təhlil. APA İqtisadi Analiz, 21 avqust 2024.

**2.** Azərbaycan Respublikası Prezidenti. (2020). “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında” Sərəncam (24 noyabr 2020).

**3.** Azərbaycan Respublikası Prezidenti. (2021a). “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Fərman (4 yanvar 2021).

**4.** Azərbaycan Respublikası Prezidenti. (2021b). “İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında” Fərman (19 yanvar 2021).

**5.** Azərbaycan Respublikası Prezidenti. (2021c). “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Sərəncam (10 dekabr 2021).

**6.** Azərbaycan Respublikası Prezidenti. (2022a). “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Fərman (21 iyul 2022).

**7.** Azərbaycan Respublikası Prezidenti. (2022b). “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam (16 noyabr 2022).

**8.** Azərbaycan Respublikası Prezidenti. (2022b). “Böyük Qayıdış” Dövlət Proqramının təsdiqi haqqında Sərəncam.

**9.** AZƏRTAC. (2023). İşğaldan azad edilmiş ərazilərin bərpası və infrastrukturun yaradılması dövlət siyasətində prioritetlik təşkil edir. AZƏRTAC Xəbər, 3 iyul 2023.

**10.** Dövlət Vergi Xidməti. (2023). İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara vergi təşviqləri verilib. (6 yanvar 2023). İqtisadiyyat Nazirliyi yanında DVX rəsmi xəbəri.

**11.** Həsənova Ş. (2025). “Əlaqələndirmə Qərargahı 5 ildə işini uğurla həyata keçirib” mövzusunda şərh. SİA siyasət xəbəri, 21 noyabr 2025.

**12.** Həsənova, Ş. (2025). Əlaqələndirmə Qərargahı 5 ildə işini uğurla həyata keçirib. SİA, 21 noyabr 2025.

**13.** İqtisadiyyat Nazirliyi. (2023). İnklüziv və dayanıqlı inkişaf üçün yeni reallıqlar: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının reinteqrasiyası. (İqtisadiyyat Nazirliyinin rəsmi analitik materialı).

**14.** İqtisadiyyat Nazirliyi. (2023). İnklüziv və dayanıqlı inkişaf üçün yeni reallıqlar: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının reinteqrasiyası.

**15.** Kolarz S., & Wojtasiewicz W. (2025). Azerbaijan’s Challenges in the Reconstruction of Karabakh. Polish Institute of International Affairs (PISM) Bulletin, 08 iyul 2025.



**S.E.Ismayilov**
*master student, UNEC*


## The role of regulatory and legal regulation in acceleration of reconstruction processes in liberated territories


**Abstract**

*The large-scale reconstruction and restoration efforts in the liberated territories of Karabakh and*

*East Zangezur represent a historic challenge for Azerbaijan. The successful and timely implementation of these efforts has been significantly supported by the establishment of a comprehensive normative-legal framework. Immediately after the end of the 2020 war, the government initiated recovery measures by introducing flexible governance, centralized coordination, and strategic planning mechanisms. The establishment of the Coordination Headquarters, the institution of special presidential representatives, and the adoption of the "Great Return" State Program have increased administrative efficiency and ensured coordinated activity among various state institutions. At the same time, unprecedented tax and customs incentives, social insurance subsidies, and other support mechanisms have been introduced through normative acts to promote investment and entrepreneurship in the liberated areas. As a result of these incentives, private sector activity in the region has increased, attracting both domestic and foreign investments to the reconstruction process. This article provides an in-depth analysis of how normative-legal regulation has accelerated the reconstruction process, evaluates the outcomes and existing challenges, and offers recommendations for future steps. It also presents a scientific perspective on the overall effectiveness of the legal mechanisms applied.*

***Keywords:*** *liberated territories, reconstruction, normative-legal regulation, Great Return, tax incentives, infrastructure, resettlement.*